AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ YASAMAL RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

№ 107 "27" 04 2017-ci il

"Yasamal rayon İcra Hakimiyyəti adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısının" təsdiq edilməsi barədə

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısının" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2017-ci il tarixli 1256 saylı Fərmanının 5-ci bəndinin icrasının təmin edilməsi məqsədi ilə və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndinə əsaslanaraq:

1. Yasamal rayon İcra Hakimiyyəti adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər aşağıdakı kimi təsdiq edilsin:

- İcra Hakimiyyəti başçısının 1-ci müavini İslamov Səməd Əziz oğlu;
- İcra Hakimiyyəti başçısının müavini Möhbalıyev Xaliq Suliddin oğlu;
- İcra Hakimiyyəti başçısının müavini Muradova Təravət Məmməd qızı;
- İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri İsrəfilov Ramin Rəhman oğlu;
- İcra Hakimiyyəti başçısı Aparatının Təsərrüfat şöbəsinin baş məsləhətçisi Əliyev Rasim Adil oğlu.

2. Yasamal rayon İcra Hakimiyyəti başçısının 11.08.2016-cı il tarixli 249 saylı sərəncamı qüvvədən düşmüş hesab edilsin.

3. Yasamal rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlili sektorunun müdiri Xəlilov Ədalət Hidayət oğluna tapşırılsın ki, bu sərəncamın surətinin Yasamal rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Bu Sərəncamın icrasına nəzarət İcra Hakimiyyəti başçısının müavinlərinə (S.İslamov, X.Möhbalıyev və T.Muradova) tapşırılsın.

Əsli ilə duzdur

**İbrahim Mehdiyev**